

# ELİNİ TANIDAN AŞIQ

*Xalq yaradıcılığının ən zəngin qollarından birini aşıq poeziyası təşkil edir. Əzəldən bəri xalqımızın qəhrəmanlıq tarixini, arzu və istəklərini aşıqlarımız böyük ilhamla, məhəbbətlə tərənnüm etmişlər. Aşıqlarımız mədəniyyətimizin və incəsənətimizin inkişafında böyük rol oynamışlar.*

Dədə Qorquddan üzü bəri müdrik el sənətkarları, Yunis İmrə, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Qaracaoğlan, Ağ Aşıq, Aşıq Alı, Növrəs İman, Molla Cuma, Hüseyn Şəmkirli, Aşıq Ələsgər, Aşıq Şəmşir və neçə-neçə azman aşıqlarımız sənətdə yadda qalan iz qoymuşlar.

Aşıq sənətinin görkəmli nümayəndələrindən biri də Aşıq Avdı Qaymaqlıdır. Aşıq Avdının sənət dünyasında kamil bir sənətkar kimi yetişməsində ustadı Sadıq Sultanovun böyük əməyi olmuşdur. Aşıq Avdı gəncliyindən gözəl saz çalar, barmaqları zildə, bəmdə tüğyan edərdi. Aşıq el içində öz ədəb-ərkanı, pürkamalı, istedadı ilə sayılıb seçilmişdir. El şənliklərinin, toy-mağarların yaraşığıydı. Coşğun təbi ilə, sinədəftər olması ilə başqalarından fərqlənirdi. Aşıq Avdını təkcə yaşadığı İncə dərəsində yox, Qazax elində, Borçalı çökəyində, Göyçə mahalında, Gəncəbasar zonasında yaxşı tanıyırdılar. Çoxlu saz havaları, xalq dastanları bilən bu el sənətkarı neçə-neçə cavanın toyunu, mağarını keçirmiş, öz xeyir-duasını vermişdir. Kəndin ədəbi-bədii həyatına, saz-söz həvəskarlarının yaradıcılığına ciddi təsir göstərmişdir. Öz sazınan, sözünən, şirin avazınan, məlahətli səsinən hamının qəlbini oxşayırdı. Aşıq Avdı folklordan, şifahi xalq yaradıcılığından, ustadlardan bəhrələnmişdir.

Mən fəxr edirəm ki, Aşıq Avdını görmüşəm, onun çalıb-oxumasını dinləmişəm, ustad sənətkarla həmsöhbət olmuşam.

Zildə şaqraq səsi məclisi titrədər, otuzluq lampanı söndürərdi. "Misri" də Koroğlu olardı, "Kərəmi" də dönüb Kərəmin özü olardı Avdı baba. Aşıq Avdı 60 il aşıqlıq etmiş, aşıq sənətinin inkişafında müstəsna xidmətlər göstərmişdir. Bütün klassik aşıqların yaradıcılığına yaxından bələd idi. Saz havalarını olduğu kimi çalardı. Müasirlərindən Sadıq Sultanov, Xındı Məmməd, Əmrah Gülməmmədov, Hüseyn Saraclı, Şıxlı Dərya Məhəmməd, Mikayıl Azaflı və başqaları Aşıq Avdının sazına-sözünə yüksək qiymət vermişlər. Saz-söz sərrafları onun dərin zəkaya, coşğun təbə malik olmasını söyləmişlər.

Xalq şairləri Səməd Vurğunla, Osman Sarıvəlli ilə dostluq etmişdir.

Aşıq Avdı Avdıyev yaradıcı aşıq olmuşdur. Onun zəngin yaradıcılıq irsi, mənalı-məzmunlu qoşmaları, ürəyə yatımlı gəraylıları, könül oxşayan təcnisləri, müxəmməsləri, divaniləri, deyişmələri, nəsihətamiz ustadnamələri vardır.

"Abbas və Gülgəz", "Əsli və Kərəm", "Qərib və Şahsənəm", "Valeh və Zərnigar", "Novruz və Qəndab", "Tahir və Zöhrə", "Diləfruz və Məsim" məhəbbət dastanlarımız kimi Aşıq Avdının da "Avdı və Mehriban" dastanı vardır. Bu dastanı onun yaradıcılığının zirvəsi saymaq olar.

Azman el sənətkarı Aşıq Avdı Avdıyev Böyük Vətən Müharibəsində iştirak etmişdir. Azərbaycan aşıqlarının II, III, IV qurultaylarının nümayəndəsi olmuş, el şənliklərində, toy məclislərində, ictimai tədbirlərdə, festivallarda, dövlət filarmoniyalarında, konsert salonlarında çalıb-oxumuş, saz-söz həvəskarları tərəfindən alqışlanmış, öz zəmanəsini ilhamlı şerləri ilə mədh etmişdir. Avdı baba ilhamını gözəllikdən, təbiətdən, yaşadığı eldən - obadan almışdı.

Aşıq Avdı 72 klassik saz havasına özünün yaratdığı "İncəgülü"sünü töhvə vermişdir. Bu havacat İncə dərəsini Azərbaycanda tanıtmış, onun yaradıcısına şan-şöhrət gətirmişdir.

***Bir gün durdum çıxdım gülşən seyrinə,***
***Gördüm ki, bülbüllər gülə yalvarır.***
***Bənövşə boynunu büküb nərgizə,***
***Nərgiz özü şirin dilə yalvarır.***

***Bir yanda dayanmış xumargözlü yar,***
***Bağda hər çiçəyin öz nəfəsi var,***
***Bir neçə addımda bulaqdan kənar,***
***Zilpar batıb dərin lilə yalvarır.***

***Hər otun başında var bir piyala,***
***Yasəmən dalğındı batıb xəyala,***
***Mehriban çıxanda sərgi-suala,***
***Avdı yaşın silə-silə yalvarır.***

Avdı babanın özünün yaratdığı "İncəgülü" havası üstə oxunan "Yalvarır" rədifli bu mahnını elə məclis yoxdur ki, sifariş verib aşıqlara oxutdurmasınlar.

Aşıq Avdı neçə aşığın ustadı olmuş, onlara sənətin sirlərini öyrətmiş, çoxlu şəyirdlər yetişdirmişdir. El şairi, haqq aşığı, el nəğməkarı, el bəstəkarı idi Aşıq Avdı! Ustad aşıq 60 il saz çalmış, söz qoşmuş, toylar, məclislər, şənliklər keçirmiş, el hörməti, xalq məhəbbəti qazanmışdır. Sazlı-sözlü ozanımız 80 yaşında Qaymaqlı kəndində əbədiyyətə qovuşmuşdur. Allah ona qəni-qəni rəhmət eləsin, yeri cənnət-məkan olsun!

***Mən aşıq elim qaldı,***
***Sazımda telim qaldı,***
***Xalqa məndən yadigar,***
***Bir "İncəgülü"m qaldı.***

Bu bayatı ustadın qəbir daşına yazılmışdır. Ötən ilin yayında Avdı babanın kiçik oğlu Sədi, bu yaxınlarda isə ömür-gün yoldaşı, Yasəmən nənə 100 yaşında dünyadan köçmüşdür. Allah onlara rəhmət eləsin!

Böyük oğlu Aşıq Sadıq, nəvələri Vüqar, Vasif, Vəli, Rəfael, Mahid, yaxın qohumları Bəxtiyar Allahverdi, Niyaz və başqaları Aşıq Avdının layiqli davamçıları kimi onun sənətini yaşadırlar. Aşıq Avdı onların sazında-sözündə yaşayır. Avdı babanın ruhu şad olsun deyə, onun sözlərindən oxuyur, sazda "İncəgülü" havasını çalırlar.

Bu gün bizim bir təsəllimiz var. Yerdən nəvə Avdı, nəticə Avdı böyüyür. Babasının torpağı sanı Allah ona ömür versin. Demək həyat davam edir.

**Haşiyə:** Aşıq Avdını sağlığında itirib-axtarmadıq, sazına-sözünə, sənətinə qiymət vermədik, lazımınca dəyərləndirmədik. Rəhmətlik ünnəyə-ünnəyə dururdu ki, "nəyim var, yığın-yığışırın, bu gün sabah öləjəm, sinəmdəkiləri özümlə qara torpağın altına aparacam". Apardı da! Özünün dediyi kimi:

***Bu saray bir də yapılmaz,***
***Kərən sındı, mil qırıldı...***

Sənətə, sənətkara qiymət vermək, onu yaşatmaq, təbliğ etmək borcumuzdur. Aşıq Avdının adı, xatirəsi əbədiləşdirilmişdir. O buna layiq sənətkardır.

**Kazım KAZIMLI**
Qazax rayonu